18 iyun / 2020

*Əli Rza XƏLƏFLİ*

# *Çox acılar gördüm*

Kredo"nun keçdiyi yolu yazmaq istəyəndə düşüncələrimin poetik variantı sanki gözlərimin önündə canlandı. Sözlər, düşüncələr misralar şəklində göründü:

Həqiqət yolçusunu izi anar dünyada,
Sözü uca tutanı yüzü anar dünyada.
Aqilləri hər zaman sözü anar dünyada,
Doğruları unutmaz, düzü anar dünyada.
Eşqində yananları közü anar dünyada.

Təzədən qayıdıb misralara çevrilmiş duyğuları təhlil edəsi deyiləm. Ancaq yaşanmış həyatın izi olaraq "Kredo"nun 21 illik, 17 cildlik həyatını gözlərimin önündə uca dağ silsiləsini nəzərlərimlə oxşayırmış kimi görürəm. Əgər sözü uca olanı kimlərsə anmayacaqsa, aqilləri, müdrikləri öz sözləri dilə gətirməyəcəksə, doğruları, düzləri öz düzlükləri və doğruluqları yada salmayacaqsa, eşqində yananlar közündə görünməyəcəksə, onda yaşamağın nə dəyəri varmış? Onda bütün bunların - mənəvi iztirabların, söz uğrunda mücadilələrin, Azərbaycan həqiqətləri uğrunda döyüşlərin söz üzündə Qarabağ savaşlarının nə dəyəri varmış?

Təbiət etibarilə nikbin adamam. Nə vaxtsa, bizim keçdiyimiz yolu kiminsə arayacağına, yaşadığımız mühitin "Kredo" olaraq sözə çevrilməsinə kiminsə yön tutacağına həmişə inanmışam. Əgər inanmasaydım... Hərdən məndən soruşurlar; sən necə və nəyin xatirinə yazırsan?

*(Davamı 16-cı səhifədə)*

# ÇOX ACILAR GÖRDÜM

*(Əvvəli 1-ci səhifədə)*

Mənim "nə üçün yazırsan?" - sualına cavabımın mahiyyəti sual verənin sualı doğuran təbiətilə bağlıdır. Və cavabım çox sadədir; yazıram ki, kimsə hələ ümidinin qırılmadığına inansın. Ona görə yazıram ki, insanlar bir-birinə insansayağı ünsiyyət, münasibət göstərə bilsin, salam verə bilsin. Bəlkə də, heç yazı yazmazdım, ona görə yazıram ki, cəmiyyətə, insanlara keçib gəldikləri yolda qazandıqları dəyərlərə sadiq olduqlarını xatırladım. Əgər bir az da səmimi olsam, deməliyəm ki, yazmasam, yaşaya bilmərəm; nə maddi cəhətdən, nə də mənəvi olaraq!..

Axı hər kəs öz işi və əməli ilə yaşayır. Mənim də həyatımın dəyəri yaza bilməyimdən çox asılıdır. Yazmasam, ruhən ölərəm. Yazmasam, çörəkpulum olmaz. Yazmasam, gündəlik həyat tərzimin - yeməyimin, içməyimin, siqaretimin müvazinəti pozular. Bu sözləri oxuyarkən yarımistehza ilə gülən bədxahlarımı da unutmuram. Yazmasam, elə bilərlər ki, ölmüşəm, yoxam. Ona görə yazıram ki, kimsənin mənim istedadıma ehtiyacı yoxdur. Tanrı mənim söz payımı kifayət qədər - qədərincə verib.

Ona görə yazıram ki, qəzetin boş yerini doldurum. Ona görə yazıram ki, həmin boş yerəcən sözü olanların sözünü qəzetin üzünə çıxara bilim.

Ona görə yazıram ki, yaddaşımı kif basmasın, dostlarımı unutmayım. O dostlarımı ki, mənim uşaqlıq illərimin içindədir. Ayaqyalın, başıaçıq, şehli otların üstündə tənha qaçmırdım, onlarla birgə idim. İndi adlarını çəkməli olsam, sözüm çox uzanar. Ona görə yazıram ki, orta məktəb partası arxasında gördüyüm həmyaşıdlarım işıqlı çöhrələri ilə hərdən gözlərimə görünsün. Və bir də ona görə yazıram ki, həyatımın ən qaynar çağlarında, ən odlu günlərində - Qarabağın gülləbaran olduğu günlərdə həmin güllələrin altına yeridim; təki bircə güllə də mənə dəysin. Ancaq sağ qaldım, yazmaq üçün sağ qaldım...

Ona görə yazıram ki, mitinq dalğaları önündə keçmiş partiya funksionerlərinin dizlərinin titrədiyi məqamlarda, qaragüruhun bar-bar bağırıb cəsarət donuna girdiyi günlərdə dalğalanan insan selinin qabağında cəsarətlə, məntiqlə nitqlərimi dinləyənlərə deyim ki, mən yolumdan azmamışam. Və yenə haqqın, həqiqətin tərəfindəyəm.

Ona görə yazıram ki, dostum Elçin Kamalla birgə "Kredo" qəzetinin ilk sayından qəbul etdiyimiz anda - milli dəyərlərə sadiq olacağımızın andına yenə də sadiqəm deyim.

1999-cu ilin 12 oktyabrında ilk say işıqlığa çıxanda düşünürdüm ki, uzaqbaşı qəzetin 10, 50, 100 sayı işıq üzü görər.

Ümumiyyətlə, 1000 say mənə həmişə fantastik görünüb. Əslində, mübarizələrimin mahiyyəti fantastik 1000 sayı reallığa çevirmək olub. Hərdən mənə yarıistehza-yarısəmimiyyət donunda deyirlər: Bu mübarizəni Qarabağı qaytarmağa həsr etsəydin indi biz Şuşadaydıq. Ona görə yazmıram ki, məni heç kəs görməsin. Görmək istəməyənlərə yazığım gəldiyi üçün yazıram.

Belələrinə deyirəm: "Kredo"nun hər bir sayı bir "Qarabağnamə"dir. Qarabağ sözümüzün hər vaxt ürəyi olub. Qarabağın qara qanı bizim qəlbimizdən çağlayan sözümüzlə görünür. Kimsə görə bilmirsə, daha bizim günahımız deyil.

* * *

Yazıram ki, kimsə insan olduğunu unutmasın.

16.06.2020